# Çin Xalq Respublikasında təhsil ilə bağlı tez-tez verilən suallara cavab

## *Ümumi suallar*

**1. İkitərəfli müqavilələr çərçivəsində təhsil üçün kvotalar var? Kvotalar necə müəyyən olunur?**
Bəli, ikitərəfli müqavilələr əsasında təhsil üçün kvota Çin tərəfindən müəyyən olunur.

**2. İkitərəfli müqavilələr əsasında xaricdə təhsil alan tələbələr Təhsil Nazirliyində qeydiyyatdan keçməlidir?**
Bəli, dövlət xətti ilə təhsil alan tələbələr hər tədris ilinin sonunda Təhsil Nazirliyinə şəxsən gələrək müvafiq hesabat verməli və qeydiyyatdan keçməlidir.

**3. Təhsil Nazirliyində qeydiyyatdan keçmək üçün hansı sənədlər tələb olunur?**
• Tələbənin cari tədris ilini bitirməsi və növbəti tədris ilinə keçməsi haqqında ali məktəb tərəfindən verilmiş rəsmi arayış (əsli);
• Qiymət cədvəlindən çıxarış (transkript - əsli);
• İstifadə edilmiş aviabilet (minik talonu ilə birgə - əsli);
• Şəxsi bank hesabından rəsmi çıxarış (Təhsil Nazirliyi tərəfindən köçürülən vəsaitə dair);
• Ümumvətəndaş (xarici) pasportunun surəti (şəkil, viza və təhsil yerinə giriş-çıxış möhürləri olan səhifələr).

**4. İkitərəfli müqavilələr əsasında xaricdə təhsil alan tələbənin əvəzinə valideyni TN-də onun qeydiyyatı üçün müraciət edə bilərmi?**
Bir qayda olaraq hər bir dövlət xətti tələbəsi təhsil səviyyəsindən asılı olmayaraq hər tədris ilinin sonunda şəxsən özü tələb olunan sənədlərlə Təhsil Nazirliyində qeydiyyatdan keçməlidir, yalnız üzrlü səbəb olarsa, yəni sağlamlıq ilə bağlı problem yaranarsa bu halda tələbənin valideyni etibarnamə və lazımi sənədlərlə birgə (tələbənin xəstəlik kağızı da daxil olmaqla) qeydiyyat üçün müraciət edə bilər.

**5. Dövlət xətti ilə xaricdə təhsil alan tələbə qeydiyyata gəlmədiyi təqdirdə hansı tədbirlər görülür?**
Dövlət xətti ilə xaricdə təhsil alan tələbə qeydiyyata gəlmədiyi təqdirdə tələbəyə təqaüd, yol xərcinin ödənilməsi və arayış verilməsi dayandırılır.

**6. Dövlət xətti ilə hazırda xaricdə təhsil alan tələbələrin qeydiyyatı hansı müddətdə və necə aparılır?**
Dövlət xətti ilə xaricdə təhsil alan tələbələrin qeydiyyatı hər ilin iyun ayının 1-dən oktyabr ayının 1-dək davam edir. Qeydiyyat həftənin beş iş günü saat 10:00-12:30-da aparılır.

**7. Dövlət xətti ilə təhsil alan tələbələrə akademik məzuniyyət verilə bilərmi?**
Tələbə təhsil aldığı ali məktəbdən hər hansı əsaslı və üzrlü səbəblə bağlı aldığı akademik məzuniyyətə dair rəsmi arayış təqdim etdiyi təqdirdə ona göstərilən müddətdə akademik məzuniyyət verilə bilər.

**8. Dövlət Xətti ilə xaricdə təhsil alan tələbələr məzun olduqdan sonra nə etməlidirlər?**
Dövlət xətti ilə təhsil alan tələblər məzun olduqdan sonra diplom, transkript və biletləri ilə birlikdə Təhsil Nazirliyində qeydiyyatdan keçməlidirlər.

**9. Məzunlara dövlət xətti ilə təhsil aldıqlarına dair arayış verilirmi?**
Bəli, tələbənin ərizə ilə müraciət etdiyi təqdirdə arayış verilir. Ərizəçi, arayışın təqdim olunacağı orqanı qeyd etməlidir.

## *Çin Xalq Respublikasında Təhsil*

**10. Dövlət xətti üzrə Çin Xalq Respublikasında təhsil hansı dildədir?**
Çin ali məktəbləri tədris dili kimi çin dilinə üstünlük verir. Müəyyən ÇXR ali məktəblərində tədris dili ingilis dilidir.

**11. İngilis və ya çin dili bilməyən tələbə Çin ali məktəblərində təhsil ala bilərmi?**
Dövlət xətti ilə ÇXR ali məktəblərinə qəbul olunan tələbələr oxuduğu ixtisasdan asılı olaraq 1 və ya 2 il müddətində çin dili üzrə hazırlıq kursu keçirlər. Hazırlıq kursu müddəti bitdikdən sonra tələb olunan dil səviyyəsinə malik olmayan tələbələr təhsil almaq imkanından məhrum olurlar.

**12. Müraciət oluna biləcək ÇXR Universitetlərinin siyahısı ilə hansı ünvandan tanış olmaq olar?**
İştirak edən universitetlər barədə məlumat elanın 2-ci səhifəsindəki keçiddəyerləşdirilmişdir.
Elan - http://www.edu.gov.az/upload/file/Benelxalq-elaqeler/2014/07.03.14/elan.pdf
Keçid - http://www.studyinchina.edu.cn/download.jsp?attachSeq=527

**13. Dövlət xətti üzrə Çin Xalq Respublikası ali məktəblərində təhsil almaq üçün imtahan vermək lazımdır?**
Xeyr, imtahan vermək lazım deyil. ÇXR ali məktəblərinə qəbul üçün tələb olunan sənədlər müvafiq qaydada göstərilən tarixə qədər Təhsil Nazirliyinə göndərilir. Yekun nəticə isə Çin Xalq Respublikasının Azərbaycandakı Səfirliyi tərəfindən elan edilir.

**14. Çin ali məktəblərində təhsil almaq məqsədilə Təhsil Nazirliyinə dəvət olunan ərizəçilər ilə müsahibə ingilis dilində olur?**
Xeyr. Müsahibə Azərbaycan dilində aparılır.

**15. Çində təhsilə müraciət etmək üçün lazım olan sənədlərin siyahısını göndərə bilərsinizmi?**
www.edu.gov.az internet səhifəsinin ELANLAR bölməsindən yerləşdirilmiş keçiddən Çin ali məktəblərinə qəbul ilə bağlı tələb olunan sənədlərin siyahısı ilə tanış ola bilərsiniz.

**16. Peşə liseyi və ya orta məktəbi bitirdikdən sonra, TQDK imtahanı vermədən bu proqrama müraciət etmək mümkündürmü?**
Bəli. Siz bakalavr səviyyəsində təhsil üçün müraciət edə bilərsiniz.

**17. Sənədlərin (diplom və əlavəsi, hərbi bilet) əslini olduğu kimi skan edib göndərdiyim təqdirdə, tərcümə və təsdiqli formasını müsahibəyə gələrkən özümlə gətirməmə icazə verilə bilər?**
Xeyr, bu mümkün deyil. Sənədlərin müvafiq qaydada göndərilməsi vacibdir. Sənədləri natamam olan və ya tələb olunan formada göndərilməyən ərizəçinin müraciəti barədə rəyin verilməsi mümkün olmayacaqdır.

**18. Mən hazırda bakalavriat səviyyəsi üzrə 3-cü kurs tələbəsiyəm. Eyni səviyyə üzrə təhsilimi Çində davam etdirə bilərəm?**
Bəli. **Nəzərinizə çatdırırıq ki siz ÇXR-də təhsilinizə** birinci kursdan başlamaq məcburiyyətində qalacaqsınız.

**19. Tədqiqat işinin planı dedikdə nə nəzərdə tutulur?**
Bakalavr pilləsi üçün müraciət edənlər - təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntiləriniz barədə minimum 500 sözdən ibarət qısa xülasə (ingilis dilində). Mövzu seçimi ilə əlaqədar heç bir məhdudiyyət müəyyən olunmamışdır / 2 nüsxə ;

Magistratura və doktorantura səviyyələri üçün müraciət edənlər- təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntiləriniz barədə minimum 800 sözdən ibarət qısa xülasə (ingilis dilində). Mövzu seçimi ilə əlaqədar heç bir məhdudiyyət müəyyən olunmamışdır / 2 nüsxə

**20. TQDK test imtahanlarının nəticəsini təsdiq edən sənədi haradan əldə etmək mümkündür?**
TQDK test imtahanlarının nəticəsini təsdiq edən sənədi Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına müvafiq sorğu göndərərək əldə edə bilərsiniz.

**21. Təhsil almaq istədiyim ixtisası özüm seçə bilərəm?**
İxtisas seçimi üzrə məhdudiyyət tətbiq edilmədiyinə görə təhsil almaq istədiyiniz ixtisasın müəyyən edilməsi məqsədilə müsabiqədə iştirak edəcək universitetlərin internet səhifələrində müvafiq məlumatlarla tanış olmağınız xahiş olunur. İxtisas seçimi ilə bağlı heç bir məhdudiyyət müəyyən edilməsə də, siz ixtisas dəyişmək qərarınızı müsahibə zamanı əsaslandırmalısınız.

**22. ÇXR ali məktəblərində təhsil səviyyələri üzrə təhsil müddəti necə müəyyən edilir?**
Bakalavriat səviyyəsi üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 4-5 il arasında dəyişir.
Magistratura səviyyəsi üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 2-3 il arasında dəyişir.
Doktorantura səviyyəsi üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 3-4 il arasında dəyişir.

**23. Hal-hazırda 4-cü kurs tələbəsi olduğum üçün diplom təqdim edə bilməcəyəyəm. Qiymətlərin çıxarışını təqdim etmək olarmı?**
Hazırda təhsil aldığınız ali məktəb tərəfindən verilmiş təhsil haqqında arayış və transkripti (fənlər üzrə akademik göstəricilər) təqdim etməklə siz müsabiqədə iştirak edə bilərsiniz. (ingilis dilinə tərcümə əlavə edilməklə) / 2 nüsxə

**24. ÇXR ali məktəblərinə qəbul üçün Təhsil Nazirliyinə hansı sənədləri göndərməliyəm?**
Təhsil səviyyələri üzrə tələb olunan sənədlər aşağıdakılardır:

Bakalavriat səviyyəsi üçün:

1. Anket forması
http://www.edu.gov.az/upload/file/Benelxalq-elaqeler/2014/07.03.14/anket.doc
*Qeyd: Müsahibə zamanı təqdim ediləcək sənədlərə 6 ədəd rəngli fotoşəkil* (3,5x4,5 sm. ölçüdə) *əlavə edilməlidir.*
2. Ümumi orta təhsil haqqında (attestat) və ya orta ixtisas təhsili haqqında notariat qaydada təsdiq edilmiş sənədin surəti;
3. Hazırda təhsil aldığınız ali məktəb tərəfindən verilmiş təhsil haqqında arayış və transkript /fənlər üzrə akademik göstəricilər (ingilis dilinə tərcümə əlavə edilməklə) / 2 nüsxə;
4. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) test imtahanlarının nəticəsini təsdiq edən sənəd;
5. Təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntiləriniz barədə minimum 500 sözdən ibarət qısa xülasə (ingilis dilində). Mövzu seçimi ilə əlaqədar heç bir məhdudiyyət müəyyən olunmamışdır / 2 nüsxə;
6. Fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin surətləri (mövcud olduğu halda);
7. CV və ya tərcümeyi-hal (ingilis və ya azərbaycan dilində);
8. Şəxsiyyət vəsiqəsinin surəti;
9. Ümumvətəndaş pasportunun surəti.

Müsahibə zamanı təqdim ediləcək sənədlərə 6 ədəd rəngli fotoşəkil (3,5x4,5 sm. ölçüdə) əlavə edilməlidir.

Qeyd: 18 yaşdan aşağı olan ərizəçilər üçün Çindən qəyyumluq haqqında sənəd əldə olunmalıdır.

Magistr səviyyəsi üçün:

1. Anket forması
http://www.edu.gov.az/upload/file/Benelxalq-elaqeler/2014/07.03.14/anket.doc
*Qeyd: Müsahibə zamanı təqdim ediləcək sənədlərə 6 ədəd rəngli fotoşəkil* (3,5x4,5 sm. ölçüdə) *əlavə edilməlidir.*
2. Ümumi orta təhsil haqqında (attestat) və ya orta ixtisas təhsili haqqında
3. Ali təhsil haqqında sənəd (bakalavr səviyyəsindən məzun olanlar üçün) və diploma əlavənin ingilis dilinə tərcümə edilmiş və notariat qaydada təsdiq edilmiş surəti / 2 nüsxə;
4. Hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi biletin notariat qaydada təsdiq olunmuş surəti;
5. Təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntilərinizbarədə minimum 800 sözdən ibarət qısa xülasə (ingilis dilində). Mövzu seçimi ilə əlaqədar heç bir məhdudiyyət müəyyən olunmamışdır / 2 nüsxə ;
6. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) test imtahanlarının nəticəsini təsdiq edən sənəd;
7. Fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin surətləri (mövcud olduğu halda);
8. CV və ya tərcümeyi-hal (azərbaycan və ya ingilis dilində);
9. Şəxsiyyət vəsiqəsinin surəti;
10. Ümumvətəndaş pasportunun surəti.

Müsahibə zamanı təqdim ediləcək sənədlərə 6 ədəd rəngli fotoşəkil (3,5x4,5 sm. ölçüdə) əlavə edilməlidir.

Doktorantura səviyyəsi üzrə:

1. Anket forması

http://www.edu.gov.az/upload/file/Benelxalq-elaqeler/2014/07.03.14/anket.doc

*Qeyd: Müsahibə zamanı təqdim ediləcək sənədlərə 6 ədəd rəngli fotoşəkil* (3,5x4,5 sm. ölçüdə) *əlavə edilməlidir.*

2. Ümumi orta təhsil haqqında (attestat) və ya orta ixtisas təhsili haqqında notarial qaydada təsdiq edilmiş sənədin surəti;
3. Ali təhsil haqqında sənəd (bakalavr və magistratura səviyyəsindən məzun olanlar üçün) və diploma əlavənin notariat qaydada təsdiq edilmiş surəti (azərbaycan və ingilis dillərində) / 2 nüsxə;
4. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) test imtahanlarının nəticəsini təsdiq edən sənəd;
5. Hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi biletin notariat qaydada təsdiq olunmuş surəti;
6. Təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntiləriniz barədə minimum 800 sözdən ibarət qısa xülasə (ingilis dilində). Mövzu seçimi ilə əlaqədar heç bir məhdudiyyət müəyyən olunmamışdır / 2 nüsxə
7. Fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin surətləri (mövcud olduğu halda);
8. CV və ya tərcümeyi-hal (ingilis və ya azərbaycan dilində);
9. Şəxsiyyət vəsiqəsinin surəti;
10. Ümumvətəndaş pasportunun surəti;
11. 2 ədəd tövsiyyə məktubu (ingilis dilində) / 2 nüsxə.

Müsahibə zamanı təqdim ediləcək sənədlərə 6 ədəd rəngli fotoşəkil (3,5x4,5 sm. ölçüdə) əlavə edilməlidir.

**25. Tələbəyə hərbi xidmətdən möhlət hüququ verilir?**
Bakalavrdan sonrakı təhsil səviyyəsi üçün müraciət edən, həqiqi hərbi xidmətə çağırışçı olan namizəd müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ aldığını təsdiq edən sənədi və ya hərbi xidmət keçdiyi halda, hərbi biletin notariat qaydada təsdiq olunmuş surətini təqdim etməlidir.
Bakalavriat səviyyəsində təhsil üçün hərbi xidmətdən möhlət hüququ tələb edilmir.

**26. Təhsil səviyyələri üzrə yaş məhdudiyyəti mövcuddurmu?**
Bakalavr, magistratura və doktorantura səviyyələri üzrə müraciət edənlər üçün yaş məhdudiyyəti müvafiq olaraq 25, 35 və 40 yaş müəyyən edilmişdir.

**27. Dövlət xətti çərçivəsində qarşılanan xərclər hansılardır?**

**Çin tərəfindən:**

- Ali məktəbdə qeydiyyat xərci
- Təhsil haqqı
- Laboratoriya xərci
- Təcrübə (internship) xərci
- Tədris materialları
- Yataqxana xərci
- Pekindən təhsil yerinə bilet
- Aylıq yaşayış xərci

**Təhsil Nazirliyi tərəfindən:**
Aviabilet (hər tədris ilində yalnız bir dəfə - gediş-gəliş bileti)

**28. Aylıq yaşayış üçün hansı məbləğdə təqaüd verilir?**
Aylıq yaşayış xərci təhsil səviyyələrinə uyğun olaraq aşağıdakı kimi hesablanmışdır:
Bakalavr tələbələri üçün: 1400 Yuan
Magistratura tələbələri üçün: 1700 Yuan
Doktorantura tələbələri üçün: 2000 Yuan